*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 461-466*

https://doi.org/10.62837/2025.3.461https://doi.org/10.62837/2025.3.

**LAMİYƏ ƏLİYEVA**
Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsinin doktorantı
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı
E-mail: miss.forcher09@gmail.com
ORCİD: 0000-0001-9985-2577

# RESTROSPEKTİV BİBLİOQRAFİK RESURS UŞAQ ƏDƏBİYYATINA DAİR MİLLİ SƏNƏD ELEMENTİNİN YADDAŞI KİMİ

**Xülasə**

Məqalədə uşaq ədəbiyyatının öyrənilməsində "Azərbaycan kitabı" retrospektiv biblioqrafiyasının əhəmiyyəti tədqiq edilir. Biblioqrafiyanın III cildində yer alan "Uşaq ədəbiyyatı" bölməsi təhlil edilir və uşaqlar üçün nəzərdə tutulmuş çap əsərlərin janr xüsusiyyətləri ilə bağlı məlumat verilir. Məqalədə nümunə olaraq, 1941-1950-ci illərdə uşaq ədəbiyyatı üzrə çap edilmiş kitab və kitabçaların janr və nəşr xüsusiyyətləri təhlil edilərək qrafik təsvirlərlə müqayisə edilir. Araşdırma nəticəsində müvafiq dövrün ən populyar müəllifləri və janrları müəyyən edilir. Məqalədə göstərilir ki, XX əsrin ortalarında epik janrın üstünlük təşkil etməsi oxucu auditoriyasının maraqları və dövrün ideoloji-sosioloji amillər ilə bağlı olmuşdur. Məqalədə biblioqrafiyanın digər cildləri də araşdırılır və müxtəlif illərdə çap edilmiş uşaq əsərlərinin statistik göstəriciləri təqdim edilir.

**Açar sözlər:** uşaq ədəbiyyatı, milli sənəd yaddaşı, retrospektiv biblioqrafik resurs, memorial funksiya, bibliometrik təhlil.

Azərbaycanda kitab mədəniyyəti əsrlər boyu böyük inkişaf yolu keçmiş, bilik və mədəniyyətin qorunub saxlanması və nəsildən-nəslə ötürülməsi prosesində mühüm rol oynamışdır. Dövrümüzə qədər müxtəlif elm sahələrini əks etdirən sənəd resurları meydana gəlmiş və cəmiyyətin maariflənməsinə xidmət etmişdir. Belə zəngin irs arasında uşaq ədəbi nümunələri xüsusi əhəmiyyətə malikdir. Müxtəlif mövzularda qələmə alınan bu nümunələr uşaqların dünyagörüşü və oxu mədəniyyətinin formalaşmasına mühüm töhfə verir.

Uşaq ədəbiyyatı hər bir yeniyetmənin, gəncin gələcəyini müəyyənləşdirir, sənəd ixtisas seçimində, elmin sirlərinə yiyələnməkdə yardımçısı olur. Bundan başqa uşaq ədəbiyyatı uşaqların mütaliə mədəniyyətinin yüksəldilməsinə də öz təsirini göstərir. Uşaqlar bədii ədəbiyyat vasitəsilə bügün həyatımızı və inkişafımızı bədii şəkildə öyrənirlər. Ona görə də uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyələrinə uyğun ən yaxşı əsərlərin təbliğ edilməsi mühüm əhəmiyyətə malikdir [7, s.161].

Azərbaycanda uşaq ədəbiyyatı biblioqrafiyasının yaranması uşaqlar üçün ədəbi-bədii əsərlərin, həmçinin elmi-fantastik və idrak ədəbiyyatının yaranması ilə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2025
Səh. 461-466

əlaqədar olmuşdur. Uşaq ədəbiyyatını özündə əks etdirən ümumi və sahəvi bibloqrafik mənbələri bilmədən uşaq ədəbiyyatı ilə maraqlanan müəllimlərin, müxtəlif yaşlı uşaqların və başqa oxucu qruplarının sorğularına lazımi qaydada cavab vermək mümkün deyil. Bu mənbələrlə yanaşı, ümumi xarakterli biblioqrafik vəsaitlərin də öyrənilməsi vacibdir [6, s.112].

Ümumi xarakterili biblioqrafik vəsaitlər müəyyən dövrləri əhatə edən müxtəlif elm sahələri üzrə materialların sistemləşdirilmiş siyahısını özündə əks etdirən biblioqrafik mənbələrdir. Ümumi xarakterli biblioqrafik mənbələr bütün elm sahələri üzrə materiallarla yanaşı, uşaq ədəbi əsərləri haqqında biblioqrafik mənbələri özündə ehtiva edir. Belə mənbələrdən biri də M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib edilmiş X cildlik "Azərbaycan kitabı" adlı fundamental biblioqrafiyadır. Biblioqrafiyada təqdim edilən materialların hər biri Azərbaycan haqqında nəşr edilmiş kitab və kitabçalardan ibarətdir. Bütün elm sahələri üzrə materialların biblioqrafik təsvirini təqdim edən bu göstəricinin cildləri müəyyən dövrlər üzrə qruplaşdırılmışdır. Ayrı-ayrı cildlərdə təqdim edilən kitab və kitabçalar Universal Onluq Təsnifatı əsasında düzülmüşdür.

Şöbələr daxilində materiallar yarımbölmələr və rubrikalara ayrılmışdır. Hər bir bölmə və yarımbölmə daxilində əvvəlcə Azərbaycan dilində ədəbiyyat, sonra isə rus dilində olan ədəbiyyat daxili əlifba sırası ilə qruplaşdırılmışdır [3, s.4].

Biblioqrafiyanın X cilddə nəşr edilməsi nəzərdə tutulsa da, bu günə qədər V cildi işıq üzü görmüşdür. Göstəricinin II və V cildləri isə ayrı-ayrılıqda dəqiq elmlər və humanitar elmlər olmaqla iki kitabdan ibarətdir.

Biblioqrafiyanın I cildi 1963-cü ildə çapdan çıxmış və 1780-1920-ci illəri əhatə edən mənbələrdən ibarətədir. Ə.Y.Əliyevin tərtibçisi olduğu bu biblioqrafiyada mövcud olan əsərlər ərəb qrafikalı Azərbaycan yazısı ilə (əski əlifba ilə) yazılmışdır. Bu faktor göstərir ki, o dövrün kitab ənənələrini dilin yazılı formadakı təzahürlərini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. 1329 adda kitab haqqında məlumat verən bu göstəricinin tərtibində iki meyar əsas götrülüb:

1. Azərbaycanlı müəlliflərin əsərləri. Bu halda onların yaşadıqları yerdən, hansı dildə yazdıqlarından və harada nəşr olunmasından asılı olmayaraq bütün əsərləri göstəriciyə daxil edilmişdir [8, s.98].
2. Dil əlaməti - yəni müəlliflərin milliyətindən, əsərlərinin nəşr yerindən asılı olmayaraq Azərbaycan dilində olan bütün kitablar [8, s.98].

Biblioqrafiyada uşaq əsərləri üçün ayrıca bölmə daxil edilməmişdir. Bu cilddə həm yerli, həm də xarici müəlliflərin əsərləri ümumi konteksdə, digər elmi və bədii əsərlərlə birgə təqdim edilmişdir. Buna görə də göstəricidə uşaq ədəbiyyatı nümunələrinin müəyyən edilməsi yalnız köməkçi göstəricilər vasitəsilə aydınlaşdırıla bilər. Təqdim edilən materiallarda uşaq ədəbiyyatı nümunələrini 3 köməkçi aparat vasitəsilə aşkara çıxarmaq mümkündür. Bu materialları əsərin mövzusu, sərlövhələr və ayrı-ayrı müəlliflərin təxəllüsləri vasitəsilə müəyyən etmək olar. Məsələn,

"Sərlövhələrin əlifba göstəricisi" adlı köməkçi aparatda bir çox uşaq ədəbiyyatı nümunələrinə rast gəlinir. Belə əsərlərə aşağıdakı nəşrləri misal göstərmək olar:

Qənizadə, S.M. Tülkü və Çaq-çaq bəy: Müəllifdən öz şagirdlərinə hədiyyeyi-acizanədir. - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1910. - 53 s.

Şaiq, A. Tülkü və xoruz: Uşaqlara məxsus qiraət kitabçası. - Bakı: Kaspi mətbəəsi, 1911. - 15 s.

Ağazadə, F. Ədəbiyyat məcmuəsi: Məktəb və mədrəsələrdə uşaqlara məxsus qiraət kitabçası. - Bakı: Kaspi mətbəəsi, 1911. - 18 s.

Biblioqrafiyanın II cildinin I kitabı 1982-ci ildə çap edilmişdir. I kitabda 1920-1940-cı illər ərzində Azərbaycanda və keçmiş SSR məkanında Azərbaycan dilində çap edilmiş 7063 adda kitab və kitabçaların biblioqrafik məlumatları daxil edilmişdir. Təqdim edilən materiallar müvafiq dövrün humanitar elm sahələrini əhatə edir. Bu göstəricidə əvvəlki cilddən fərqli olaraq "Uşaqlar üçün ədəbiyyat" adlı yeni bölmə əlavə edilmişdir. Bu bölmənin bədii ədəbiyyat hissəsində ümumilikdə 390 uşaq ədəbiyyatı öz əksini tapmışdır. Onlardan 106-sı Azərbaycanlı müəlliflərin, 206-sı isə xarici müəlliflərin əsərləridir.

Biblioqrafiyanın III cildi isə 2014-cü ildə işıq üzü görmüşdür. 1941-1950-ci illəri əhatə edən bu göstəricidə ümumilikdə 4897 kitab və kitabçanın biblioqrafik təsvirinə yer verilmişdir. III cild bütün elm sahələrinə həsr edilib və əvvəlki cildlərdən fərqli olaraq burada yerli və xarici uşaq əsərləri ayrı-ayrı yarımbölmələrdə təqdim edilmişdir:

1. Uşaqlar üçün bədii ədəbiyyat – Bu yarımbölmədə 176 uşaq ədəbiyyatı nümunəsinin (159-u azərbaycan dilində, 17-si rus dilində olmaqla) biblioqrafik təsvirinə yer verilmişdir.
2. Uşaqlar üçün xarici ədəbiyyat – Bu yarımbölmədə isə 167 əsərin biblioqrafik təsviri daxil edilmişdir. Onlardan 145-i azərbaycan dilində, 22-si isə rus dilində olan tərcümə əsərlərdir.

Biblioqrafiyanın III cildi həm zəngin informasiya resurlarını ehtiva edir, həm də onların ayrı-ayrı bölmə və yarımbölmələr şəklində sistemləşdirilməsi sənəd resurlarının daha səmərəli və asan istifadəsinə imkan yaradır. Növbəti illərdə biblioqrafik göstəricinin IV və V cildləri işıq üzü görmüşdür. Göstəricinin III cildində oluduğu kimi IV və V cildlərində də "Uşaq ədəbiyyatı" bölməsi daxil edilmişdir. Biblioqrafiyanın IV cildində 1951-1960-cı illəri əhatə edən 9954 adda ədəbiyyatın biblioqrafik məlumatları daxil edilmişdir. Təqdim edilən materiallardan 229-u azərbaycan uşaq ədəbiyyatı, 334 mənbə isə xarici uşaq ədəbiyyatına dair əsərlərdir. V cildin I kitabında isə 1961-1970-ci illəri əhatə edən 10237 adda ədəbiyyatın biblioqrafik təsvirinə yer verilmişdir. Bu mənbələrdən 265 adda kitab və kitabça azərbaycan uşaq ədəbiyyatı, 233 mənbə isə xarici uşaq ədəbiyyatı nümunələrindən ibarətdir. "Azərbaycan kitabı" biblioqrafiyası uşaq ədəbiyyatının tədqiqinə dair furndamental mənbədir. Biblioqrafiyanın hər bir cildi uşaq

ədəbiyyatının sistemli şəkildə öyrənilməsi və bu sahədə tədqiqat aparan mütəxəssislərin informasiya tələbatının ödənilməsi baxımından strateji əhəmiyyətə malikdir. Buna nümunə olaraq, biblioqrafiyanın III cildinin "Uşaq ədəbiyyatı" bölməsini qeyd etmək olar. Bu bölmənin təhlili həmin sahədə aparılan tədqiqatların inkişafı və informasiya təminatı baxımından mühüm rol oynayır. Biblioqrafiyanın III cildindən aydın olur ki, 1941-1950-ci illərdə nəşr edilmiş uşaq əsərləri arasında hekayə janrında yazılmış kitab və kitabçalar üstünlük təşkil edir. Hekayələrdən sonra ən çox populyar olan digər janrlar isə şeir və nağıllardır. Bu janrların paylanma dərəcəsi və faiz nisbəti yuxarıda təqdim edilən qrafik vasitəsilə təsvir edilmişdir.




**Qrafik 1.**




**Qrafik 2.**

Qrafik 1-də 159 ədəbiyyatın nəşri üzrə faiz göstəriciləri təqdim edilib. Belə ki, hekayələr 27.80% göstərici ilə ön planda yer alır. Atalar sözləri isə 0.60 faiz ilə ən az çap olunan materiallardır. Hekayələrdən sonra ən çox nəşr olunan digər janrlar isə şeirlər (24%) və nağıllardır (14.80%). Sözügedən zaman çərçivəsində müxtəlif janrları özündə birləşdirən bədii əsərlər məcmuəsi də çap edilmiş və bu isə qalan nəşrlər ilə müqayisədə 3.40 %-lik göstərici təşkil edir. Uşaq mahnıları 2.30 %, povest janrında olan kitablar isə 1.70 %-dir. Tapmacalar, izonəşrlər, marrifləndirici ədəbiyyatlar və publisitik janrın növü hesab olunan oçerklər isə 1.10 % təşkil edir.

Növbəti qrafik isə 1941-1950-ci illərdə Azərbaycanlı müəlliflərinin rus dilinə tərcümə edilmiş əsərlərinin paylanma dərəcəsini göstərir. 17 adda ədəbiyyatın biblioqrafik məlumatlarından aydın olur ki, çap edilmiş əsərlərdən 5-i hekayə və nağıl, 4-ü şeir, 2-si bədii əsərlər məcmuəsi, 1-i isə povestdir. Qrafik təsvirə görə, ən az nəşr olunan rusdilli tərcümə əsərlər povest janrında olmuşdur ki, bu göstərici isə təxminən 5.90% təşkil edir. Ən çox populyar olan əsərlər isə 29.40% ilə hekayə və nağıllar təşkil edir. Poemalar 23.50% paya malik olmuş, bədii əsərlər məcmuəsi isə 11.80%-lik göstərici ilə yayımlanmışdır.

Bu statistik göstəricilər sübut edir ki, Azərbaycan uşaq ədəbiyyatının həmin dövrlərdə rus dilinə tərcümə prosesində janr seçimi müəyyən meyarlara əsaslanmışdır. Xüsusilə epik janrın populyar xarakter daşıması o dövrün oxucu qruplarının maraq dairəsi, informasiya tələbatı və dövrün ideoloji-siyasi amilləriylə bağlı idi. Bu, yalnız həmin dövrün uşaq ədəbiyyatında epik növün üstünlük təşkil etməsi ilə bağlı deyil, eyni zamanda digər cildlərdə də uşaq ədəbiyyatı üzrə janr seçiminin oxşar meyarlara əsaslandığını göstərir. Nəticə olaraq, uşaq ədəbiyyatının tədqiqi sahəsində zəngin qaynaq olan "Azərbaycan kitabı" biblioqrafiyası həm akademik, həm də praktiki olaraq müasir tədqiqatların inkişafına mühüm töhfələr verir.

**Ədəbiyyat**

1. Azərbaycan kitabı : biblioqrafiya [3cilddə] / tərt.: Ə.Y.Əliyev; red.: H.Araslı, Ə. Mirəhmədov, M.Sultanov. - C.I : (1780-1920) . - Bakı, 1963. - 220 s.
2. Azərbaycan kitabı : biblioqrafiya [3cilddə]/ tərt.: V.C.Mirzəyeva, M.Ə.Zabalova, N.A. İsmayılova ; red.: H.Araslı, Ə.Mirəhmədov. - C.II : Kitab 1(1920-1940). - Bakı: Yazıçı, 1982. - 746 s.
3. Azərbaycan kitabı : biblioqrafiya [10 cilddə] / baş red. K.Tahirov; tərt.: L.Talıbova və b. - red. : Z. Qulamova, L.Bağırova. - C.III : (1941-1950). - Bakı, 2014. - 488 s.
4. Azərbaycan kitabı : biblioqrafiya [10 cilddə] / Azərbaycan Milli Kitabxanası; tərt.: L.Talıbova və b.; baş red. K.Tahirov; red.: Z.Qulamova, L.Bağırova. - C.IV: (1951-1960). - Bakı, 2016. - 840 s.
5. Azərbaycan kitabı : biblioqrafiya [10 cilddə] / Elmi red. K.Tahirov; red.: Z.Qulamova, L.Bağırova. - C.V : Kitab 1 (1961-1970) : Humanitar elmlər. - Bakı, 2018. - 824 s.
6. İsmayılova, S. Azərbaycan uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafik nəşrlərinin yaranması və inkişafı // Kitabxanaşünaslıq və biblioqrafiya. - Bakı. - 2010. - № 1. - S.112-121.
7. İsmayılova, S. Uşaq ədəbiyyatına olan biblioqrafik informasiyaya sosial tələbat // Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq. - 2009. - № 2 (25). - S. 160 - 164.
8. Sadıqova, S. Azərbaycan kitabının informasiya təminatı // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktiki jurnal. - 2015. - № 2(17). - S. 97-102.

**Lamiya Aliyeva**

**RETROSPECTIVE BIBLIOGRAPHIC RESOURCE AS A MEMORY OF THE NATIONAL DOCUMENTARY ELEMENT ON CHILDREN'S LITERATURE**

**Summary**

The article examines the importance of the "Azerbaijani Book" retrospective bibliography in the study of children's literature. It analyzes the "Children's

Literature" section in Volume III of the bibliography and provides information on the genre characteristics of printed works intended for children. As a case study, the article analyzes the genre and publishing features of children's books and pamphlets published between 1941 and 1950, comparing them with graphical representations. The research identifies the most popular authors and genres of the relevant period. The article shows that the dominance of the epic genre in the mid-20th century was due to the interests of the readership and the ideological and sociological factors of the time. Additionally, other volumes of the bibliography are explored, and statistical data on children's works published in various years are presented.

**Key words:** children's literature, national document memory, retrospective bibliographic resource, memorial function, bibliometric analysis.

**Ламия Алиева**

**РЕТРОСПЕКТИВНЫЙ БИБЛИОГРАФИЧЕСКИЙ РЕСУРС КАК ФОРМА ПАМЯТИ О НАЦИОНАЛЬНОМ ДОКУМЕНТАЛЬНОМ ЭЛЕМЕНТЕ В ДЕТСКОЙ ЛИТЕРАТУРЕ**

**Резюме**

В статье рассматривается значение ретроспективной библиографии «Азербайджанской книги» в изучении детской литературы. Анализируется раздел «Детская литература» в третьем томе библиографии и приводятся сведения о жанровых особенностях печатных произведений, предназначенных для детей. В статье на примерах анализируются жанровые и издательские особенности книг и брошюр по детской литературе, изданных в 1941–1950 годах, и проводится их сопоставление с графическими иллюстрациями. В результате исследования выявлены наиболее популярные авторы и жанры соответствующего периода. В статье показано, что доминирование эпического жанра в середине XX века было обусловлено интересами читательской аудитории, идеологическими и социологическими факторами того времени. В статье также рассматриваются другие тома библиографии и приводятся статистические показатели детских произведений, опубликованных в разные годы.

**Ключевые слова:** детская литература, национальная документальная память, ретроспективный библиографический ресурс, мемориальная функция, библиометрический анализ.

**Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov**